# *Tariximizin Diqtəsi*

Prof. Nəsib L. Nəsibli

Obyektiv tarixçilik yolgöstərən ulduzdur. Çünki keçmişini bilməyən fərd, qrup, millət indisini anlayamaz, gələcəyinə işıq sala bilməz. Bilinən bu gerçəyin ifrat şəkli də vardır. Adına da "tarixi determinizm" deyirlər. *Qədimdə nə var idisə, indi də elədir; tarix təkərrürdən idarətdir; şanlı tariximiz gələcəyimizin qarantıdır...* kimi fikirlər fərdin, qrupun, millətin gələcəyini keçmişinə bağlayır, dialektikanı yox sayır.

İranda Türklük dörd dəfə inqilab etdi. Minlərlə insanımız qurban getdi. Yenə də milli hədəflərimizə yetişməmişik. Qarşı tərəf bunu "Azərbaycanın əsrlər boyu İranın ayrılmaz hissəsi olması, belə də qalacağı" ilə izah edir.

Fərqli bir gerçəyi dilə gətirə bilərik. Milli hərəkatın ilk bəlirtilərinin/təzahürlərinin ortaya çıxmasından sonrakı 100 ildə dünya da çox dəyişdi. 1917'də Mirzə Cəlilin yana-yana dediyi kimi "Dünyavü aləm dəyişildi, mənalar özgə təbir əxz elədi, yəni bizim dilcə söyləsək, o şeylər ki əsl mənalarını itirmişdi, qayıdıb əslini tapdı… buna hamı qail oldu ki, vətən, vətən, vətən; dil, dil, dil; millət, millət, millət!.. Dəxi bu dairələrdən kənar bəni-növibəşər üçün nicat yolu yoxdur."

Milli hərəkatın doğru yola düşməsi üçün keçmişin acı səhvlərinin üstünü örtməməliyik. Tam tərsinə, acımadan bu yanlışların üstünə getməliyik. Daşlaşmış tarix bilgilərimiz bu etiraflardan rahatsız olacaq. Amma sağlam düşüncənin (və siyasi fəaliyyətin) başqa yolu yox kimi görünür.

*Məşrutədə yorğa getdik...*

İran tarixində ilk dəfə olaraq Əsas qanunun (konstitusiyanın) qəbulu və mütləqiyyətdən konstitusiyalı monarxiya idarə üsuluna keçid, ənənəvi əşirət (tayfa) dövlətindən modern dövlətə keçidin göstəricisi idi. Bu, bütün İran əhalisinin ümumi qazancı idi. Ancaq əhalinin çoxmillətli tərkibinin Əsas qanunda əks olunmaması, Fars qövmünün dilinə əlahiddə statusun verilməsi, Şiəliyi rəsmi dövlət məzhəbi elan etmək və s. Məşrutə inqilabından dərhal sonra ölkədə kəskin problemlər yaradacaqdı. Azərbaycanın, ümumiyyətlə Türklərin Məşrutə inqilabında bu qədər fəal iştirak etməsi və verdiyi minlərlə qurbanın müqabilində qazancı oldumu, oldusa nə idi?

Ölkədə ilk siyasi əncümən 1906'nın sentyabrında Təbrizdə yarandı. Şəhər əhalisi tacir, sənətkar, aristokratiya, ruhanilər, mülkədar və torpaq sahiblərindən ibarət 20 nəfərlik heyət seçdilər. Təbriz Əncüməni sonralar Azərbaycan Əyalət Əncüməni kimi fəaliyyət göstərdi və inqilab dövründə siyasi proseslərin mərkəzində yer aldı. 1907'nin may-iyununda birinci məclis Əyalət və Vilayət Əncümənləri Haqqında Qanun layihəsini müzakirə edib, 122 maqqədən ibarət qanun olaraq qəbul etdi. Bu qanunda əncümənlərin təşkili qaydaları, onların səlahiyyətləri, əyalət və vilayətlərin büdcələri, vilayət əncümənlərinin təşkili haqqında bölümlər var idi. Əyalət əncümənlərinin səlahiyyətləri haqqında bölüm özəlliklə diqqəti çəkir. 87. maddə əyalət əncümənləri üçün kifayət qədər geniş səlahiyyət dairəsi müəyyən edirdi: qanunların həyata keçirilməsinə nəzarət, əyalət işləri haqqında qərarların qəbul edilməsi, əyalətin iqtisadiyyatı, təhlükəsizliyi və rifahına aid münasibətin bildirilməsi. Əyalət əncümənləri valilər haqqında şikayətləri müzakirə edib, onun hərəkətlərində qanuna zidd hallar müəyyən etdiyi təqdirdə, valiyə xəbərdarlıq etmək haqqına sahib idilər. Bu xəbərdarlıq təsirsiz qaldıqda, əncümənlər məsələni ölkənin mərkəzi dövlət orqanları qarşısında qaldıra bilərdilər (89. maddə). Əyalət əncüməninin səlahiyyət dairəsinə vergilərin yığılması və xərclənməsinə nəzarət (91. maddə), lazım gəldikdə fövqəladə yerli vergilər qoymaq (94. maddə) da daxil idi. Bu qanuna görə, əyalət və vilayət büdcələri vali tərəfindən tərtib edilsə də, əncümənlər büdcə layihəsinə lazımi dəyişiklik etdikdən sonra onu təsdiq edib, son təsdiq üçün maliyyə nazirliyinə göndərməli idi (112. maddə). Vali hər

ilin birinci ayında əncümənə müfəssəl maliyyə hesabatı verməli idi (113. maddə).[1] Bu qanun əyalət və vilayət əncümənlərinə yerli hakimiyyət orqanı rolunu oynamaq üçün kifayət qədər səlahiyyət verirdi və Məşrutə inqilabı gedişində özəlliklə Azərbaycan Əyalət Əncüməni bu səlahiyyətlərdən yetərincə istifadə edib, kiçik aralıqlarla əyalətdə əsas hakimiyyət orqanı oldu. Əyalət və vilayət əncümənləri o zamankı İran dövlətinin *Məmaliki Məhruseyi Qacar/Iran* prinsipindən qaynaqlanırdı (hərçənd ki bu prinsip Anayasada əks olunmamışdı). O, İrandakı xalqların mühüm və yeganə demokratik və milli nailiyyətlərindən biri sayılmalıdır. Çoxmillətli İranda millətlərarası problemlərin yumşaldılması, hətta sonralar həlli sahəsində həssas rol oynamaq potensialına malik idi. (Məşrutə inqilabının məğlubiyyətindən sonra bu demokratik idarəçilk insititutu ləğv edildi, uyğun qanun isə icrasız qaldı).

Əncümənlərin yerli idarəçilik orqanı kimi mühüm önəminin olmasına, mərkəzin qanunsuzluğuna və yararsız idarəçiliyinə qarşı yönəlmələrinə baxmayaraq, onlar milli muxtariyyət orqanları ola bilmədilər. Azərbaycan Əyalət Əncüməninin və yerli vilayət əncümənlərinin yerli dil, yerli mədəniyyət haqqında hər hansı bir qərarının olması məlum deyildir. Əncümənin orqanı olan *Əncümən* qəzeti Farsca çıxır, çeşidli orqanların adındakı "milli" sözü "ümummilli", ümum-İran anlamı daşıyırdı. İnqilab zamanı Azərbaycanda fəal iş aparmış "İctimaiyyun-amiyyun" ("Mücahid") Partiyasının[2] sənədlərində milli-etnik məsələ ilə bağlı heç bir qeyd yox idi.[3] İnqilab zamanı Tehranda yaranmış, Təbrizdə də yerli şöbəsi olan İran Demokrat Partiyası İranın çoxmillətli quruluşunu qəbul etmir, hər vasitə ilə onun xarici və daxili bütünlüyünü qorumaq zərurətindən bəhs edirdi.[4] Bu partiyanın qurulmasında yerli Türklər mühüm rol oynamış, onun gerçək rəhbəri Seyid Həsən Tağızadə idi. Bu partiyanın Tehrandakı *İrane Nou* qəzetini Məmməd Əmin Rəsulzadə, Təbrizdəki *Şəfəq* qəzetini isə sonralar pan-İranistlərin tanınmış nümayəndəsi olacaq Mirzə Hacıağa Rzazadə (sonralar Rzazadə-Şəfəq) redaktə edirdi. Hüseyn Ümidə görə, Məşrutə inqilabı dövründə Azərbaycanda 50'yə yaxın qəzet və dərgi çıxdı. Bunlardan 8'i Türkcə-Farsca, biri Türkcə, qalanları isə Farsca nəşr edildi.[5] Tehranda çap edilən bir çox qəzetin təsisçisi və redaktoru da Türklərdən idi. Bu mətbu orqanların araşdırılması göstəririr ki, onlar bir qayda olaraq ümum-İran problemlərindən bəhs etmiş, Türklük məsələlərini səhifələrinə çıxartmamışlar.[6]Məşrutə inqilabı ərəfəsində İstanbuldan vətəni Şəbüstərə gəlmiş gənc şair Mirzə Əli Möcüzün ana dilində qələmə aldığı şeirlərini Təbriz qəzetlərinin çap etməməsi "Möcüzü Məşrutə hərəkatından uzaqlaşıdırır, daha döğrusu onu bu inqilabın xeyrinə yazmaqdan saxlayır."[7]

Məşrutə inqilabından ən karlı çıxan Fars etnosu oldu. Hər şeydən əvvəl Farsların onillərlə uyuşa bilmədikləri Qacar hakimiyyəti zəiflədi. Bunun əksinə, ölkə idarəçiliyində onsuz da böyük çəkisi olan Fars bürokratiyasının rolu daha da artdı. 1907'nin avqustunda Təbrizli Abbas Ağanın baş naziri qətl etməsindən məmnun olan Fars şairlərindən Fəhrül Vaizin adlı birisi Qacar hakimiyyətini Fars dövlətçiliyinə yad, hətta düşmən hadisə sayır. Bir şeirində o yazır: "Türk, İran əsillilərə eyləyib töhmət, Firudin mülkünü, Cəmşidin camını aldı."[8]İslahatçı-modernist dairələrin Hindistanda çap etdirdiyi nüfuzlu *Həblülmətin* qəzeti inqilab zamanı (12 noyabr 1906) Təhsil Nazirliyinə ünvanladığı redaksiya məqaləsində yazırdı ki, toplum özünü yalnız o vaxt moderləşdirə bilər ki, o tək millətə çevrilə bilsin. Və toplum o zaman tək millətə çevrilir ki, o, ortaq ənənə, inanc və özəlliklərlə birləşə bilsin. Qəzetin fikrinə görə, "bəzilərinin yanlış olaraq iddia etdiyi kimi, təkcə monarxa sədaqət yetməz." Bu bağların olmaması toplumu bölər və modernləşmənin qarşısını alar. Məqalə-müraciət müəllifləri İranın başına gələn faciələri buradakı Türklüyün varlığı ilə izah etmək kimi qatı irqçi nəticəyə gəlirlər: "Bizim indiki bədbəxtliklərimizin kökləri Moğol və Tatar yürüşlərinə gedib çıxır. Sevgili Azərbaycanımıza bir xarici dil təhmil edildi. Əhalimiz Fars və Türk dillilərə bölündü." Başqa bir yerdə *Həblülmətin* hesab edirdi ki, "ölkədə çoxdilçilik qaldıqca, onun müstəqilliyini nəinki Əsas qanun, hətta respublika idarəçiliyi belə təmin edə bilməz."

Farsların çoxluqda olduğu Şiə ruhanilərinin yuxarı təbəqəsi 19. yüzil boyu artan nüfuzlarını yeni anayasada təsbit etdirə bildi. Bu təbəqə inqilabın başlarında fəal şəkildə proseslərə qoşuldu,

şah sarayı ilə narazı kütlə arasında vasitəçi olmağa çalışdı. Tehran müctəhidləri Seyid Məhəmməd Təbatəbai, Seyid Abdulla Behbehani və Şeyx Fəzlulla Nuri nüfuzlarından istifadə edərək yeni anayasada ruhanilərin yüksək sosial-siyasi statusunun təsbit edilməsinə çalışdılar. Anayasaya Əlavələrin layihəsini onlar narazılıqla qarşıladılar. Ruhanilərin yuxarı təbəqəsi anayasanı tamamilə şəriətə tabe etdirməyə, beləliklə ölkənin ictimai-siyasi həyatına özlərinin nəzarətini təmin etməyə çalışdılar. Feodal aristokratiyası və şah sarayı ilə yaxın əlaqələri olan Şeyx Fəzlulla bu layihəyə qarşı xüsusi fəallıqla təbliğat aparırdı.[9] O, adıçəkilən layihəyə bir maddənin də əlavə edilməsini israr edirdi. Bu maddəyə görə, ruhanilərdən ibarət olan xüsusi bir komissiya qanun layihələrinin və məclis qərarlarının şəriətə uyğun olub-olmamasını müəyyən etməli, bununla məclis hər addımını ruhanilərin yuxarı təbəqəsinin sanksiyası ilə uyğunlaşdırmalı idi.[10] 1907'nin oktyabrında qəbul edilmiş (1925'in dekabrında qismən dəyişdirilmiş) Anayasaya Əlavələrdə İranın rəsmi dini 12 imam haqqında Cəfəri məzhəbi qəbul edildi (1. maddə). Əlavələrin 2. maddəsində yazıldı: "Məclisin qanunları İslamın müqəddəs qaydalarına zidd olmamalıdır. Bu qanunların İslam əsaslarına uyğun olmasını üləmalar müəyyən edir." Bunun üçün 5 ali ruhani şəxsdən ibarət olan bir komitə yaradılmalı idi. Bu komitənin təşkili qaydaları 2. maddədə izah edilmişdir.[11] Əncümənlər haqqında qanun layihəsi də ruhanilərin kəskin müqavimətinə rast gəldi. 1907'nin martında məclisdə çıxışı zamanı müctəhid Ağa Seyid Məhəmməd deyirmiş: "Bu əncümənlər nə olan şeydir? Onlar nəyə lazımdır? Bir ölkədə yüzlərlə parlament olmaz. Məclis olan yerdə bu əncümənlər lazım deyil. Əncümənlər ölkədə qarışıqlıq və anlaşmazlıq yaradır, xeyri də yoxdur... Onlar hətta ruhanilərin də işinə qarışırlar."[12]

Fars etnosunun Məşrutədən əldə etdiyi ən böyük qazanclardan birisi də Fars dilini bilməyin məclisə və əncümənlərə seçilmək üçün vacib şərt olması idi. Bu şərt məclisə seçkilər haqqında qanunda (4. maddə), eləcə də əyalət və vilayət əncümənləri haqqında qanunda (9. maddə) təsbit edildi.[13] İnqilab dövründə əhalisinin əksəriyyətinin Farslardan ibarət olduğu Tehrana əyalətlərə nisbətən həddindən artıq yerin verilməsini də bu xalqın üstün statusunun təsbiti saymaq olar. Tehrandan seçiləcək 60 məclis üzvü birinci məclisin üzvlərinin (toplam 200'ə qədər) önəmli bölümünə bərabər idi. Halbiki Tehran əhalisindən 6-7 dəfə çox olan Azərbaycan əyalətinin əhalisinə cəmi 12 yer ayrılırdı. İkinci məclisə seçkilər haqqında qanunda dəyişiklik oldu. Artıq Azərbaycan əyalətinə ən çox – 21 yer verilir, Tehrana ayrılan yerlərin sayı isə kəskin şəkildə azaldılıb, 60'dan 15'ə endirildi.[14]

Azərbaycan Türkünün Məşrutə inqilabında iştirakı mövzusunu yekunlaşdırarkən bu inqilabı onlar üçün itirilmiş fürsətlər kimi dəyərləndirmək məcburiyyətindəyik. Məmməd Əmin Rəsulzadə 1911'də yazırdı: "Türk inkılabçıları, Türk mebusları, Türk encümenleri dediğimizde bunların mahz Türklük namına hareket ettikleri düşünülmesin. İran Türk meşrutiyyetperverleri Türklüklerini düşünmediler; bütün fedakarlığı ancak İranlılık ve vatan-i müşterek namına icra etmişlerdir."[15] Çox sonralar Təbrizli Əli Azərbaycanın və Türklərin Məşrutə inqilabında iştirakına simvolik şəkildə, ancaq dəqiq qiymət verəcəkdi: "Məşrutiyyətdə biz yorğa getdik, onlar mindilər..." [16]

*Varlığımız İrana qurban olsun...*

Birinci Dünya Savaşının bitməsinə baxmayaraq Britaniya İrandan çəkilmək istəmir, əksinə, Osmanlının və Rusiyanın buradan getməsindən istifadə edərək, İranda daha artıq dərəcədə möhkəmlənmək niyyətində idi. 1919'un avqust ayında Vüsuqüddövlə hökuməti ilə imzalanmış müqavilə İranı siyasi və iqtisadi cəhətdən Britaniyadan tam asılı vəziyyətə salırdı. Bu müqaviləni İran cəmiyyəti hiddətlə qarşıladı. Ölkə miqyasında müqavilənin ləğv edilməsini tələb edən çıxışlar baş verdi. Ən ciddi hərəkat Gilan, Xorasan və Azərbaycanda gedirdi. Ölkəni bürümüş hərəkatın əsas tələbi Britaniya-İran müqaviləsinin ləğvi idi.

Məşrutə hərəkatında olduğu kimi bu dəfə də Azərbaycan hərəkatın mərkəzinə çevrildi. Ölkənin baş naziri Vüsuqüddövlə Azərbaycanı İran dövlət orqanizmində "qara yara" adlandırır, burada durum düzəlməyincə İranda "rahatlıq" yaranmayacağını deyirdi.[17] Azərbaycan Demokratik Respublikasının (AXC'nin) İranda ilk səfiri Adil Xan Ziyadxan 1920'nin mart ayının başlarında Güney Azərbaycandakı siyasi durum haqqında yazırdı: "İran Azərbaycanında İrandan ayrılmaq və Azərbaycan Respublikasına birləşmək istiqamətində hələ zəif də olsa, təbliğat gedir. Azərbaycan Respublikası yaxın gələcəkdə İranda baş verəcək hadisələrə hazır olmalıdır."[18] Aprel ayının 11'də isə səfir İrandakı durumu belə xarakterizə edir: "İran sürünür, kütləvi rüşvətxorluq və vəzifələrə təyinat zamanı açıq alver; nəticədə xalqın insafsızcasına soyulması; məhkəmə və ədalət deyilən bir şey yoxdur; keçmiş əzəmətdən əsər-əlamət qalmayıb; yeni mədəniyyət və abadlıq görünmür; hər yanda yoxsulluq və natəmizlik... Farsların bizim respublikaya münasibəti o qədər də yaxşı deyil, əksinə, İran Azərbaycanı Türklərinin münasibəti qardaşcasına, dostcasınadır. İran Azərbaycanı muxtariyyətə, müstəqilliyə və Farsistandan ayrılmağa can atır." Səfir Adil Xan Ziyadxanın 12 aprel'də xarici işlər nazirinə yazdığı məktub Təbrizdə baş verən hadisələrə onun marağını göstərirdi: "İran Azərbaycanlıları açıq deyirlər ki, Azərbaycan Azərbaycanlılar üçündür və nə vaxta qədər Tehrandan göndərilən Fars hakimlərini dolandıracağıq. Onların yeganə məqsədi bədbəxt Azərbaycan xalqının şirəsini sormaqdan, qarət olunmuş xalq pulları ilə Tehranda saraylar tikib, bağlar salmaqdan ibarətdir."[19]

Səfir Zəyadxanın sonuncu məktubu göndərdiyi tarixdə Təbriz artıq Aıərbaycan Demokrat Partiyasının (ADP) nəzarətində idi. Azərbaycanda sakitlik yaratmaq üçün Vüsuqüddövlə buraya qəddarlığı ilə fərqlənən şahzadə Eynüddövləni vali, Əminülmülkü isə vali müavini təyin etmiş, Təbrizə çoxlu polis qüvvəsi göndərmişdi. Mart ayında davam edən repressiyalar, eləcə də aprelin başlarında yerli demokratların həbs edilməsi, ADP rəhbərliyini yumşaq mübarizə üsullarından (xahiş, tələb, etiraz mitinqi, yerli məmurun istefası tələbi və s.) əl çəkib, daha radikal addımlar atmağa təhrik etdi. Təbrizdəki müxtəlif silahlı dəstələr bitərəf qaldıqları, hətta bəzi dəstələrin başçıları ADP tərəfinə keçdikləri üçün burada iki gün içində dövlət idarələrini ələ keçirmək çətin olmadı. Müvəqqəti hakimiyyət orqanı kimi təşkil olunmuş İctimai İdarə Heyətinin (İİH) sədri Şeyx Məhəmməd Xiyabani aprelin 7'də Təbriz əhalisi qarşısındakı çıxışında bildirdi ki, "bu ğün biz Vüsuqüddövlə və İngilis talançı sazişini bağlamış hökumət əleyhinə üsyan etmişik və ... Azərbaycanın adını Azadistana dəyişərək bu gündən bu adı rəsmi ad kimi elan edirik."[20] Aprel ayını 9'da İİH-nin Fars və Fransız dillərində yazılmış bəyanatında üsyanın məqsədi Azərbaycan əyalətində asayiş yaratmaq, hökumət nümayəndələrinin anayasaya zidd siyasətinə son qoymaq və anayasanı sözdən işə keçirmək kimi formulə edildi.[21] Üsyanın əsas qayəsi isə 1919. il Britaniya-İran sazişinin, ölkədə İngilis ağalığının ləğvi idi.

ADP rəhbərliyinin əyalətin adını "Azadistan"a dəyişdirməsi yalnız təbliğat məqsədi daşımamışdır. Bu məsələyə aydınlıq gətirmək Təbriz üsyanının xarakterini aydınlaşdırmağa yardım edər. Xiyabani və silahdaşları eyni vaxtda, 7 aprel 1920 tarixində, Arazın quzeyində "Azərbaycan" adlı dövlətin varlığını yetərincə dəyərləndirə bilmədilər.[22] ADP rəhbərliyi bu milli və müstəqil dövlətlə əlaqə qurmağa cəhd etmədi. Bunda bolşevizmə rəğbət və Sovet Rusiyasının vədlərinə inam mühüm rol oynamış ola bilər. Onlar ADR'in Denikin, daha sonra Sovet Rusiyası təhlükəsi qarşısında siyasi varlığını qorumaq üçün İngilis qəyyumluğundan yararlanmaq istəyinin yetərincə fərqinə varmamış, bu dövlətin Güneyə iddialı olmasını zənn etmişlər. Bəzi müəlliflər bu addəyişməni Arazın quzeyində Azərbaycan Sovet Sosialist Respublikasının yaranması ilə izah etməyə çalışırlar. Məsələn, 1960'ların tanınmış solçu müxalif liderlərdən biri Əlirza Nabdil (Oxtay) yazmışdır: "Xiyabaninin demokratları Böyük Oktyabr sosialist inqilabına müsbət münasibətlərinə baxmayaraq, sosialist inqilabının güneyə doğru irəliləməsi və Qafqazda Azərbaycan Sovet Sosialist Respublikasının təşkilinə qarşı müdafiə mövqeyi tutdular. İran Azərbaycanı əyalətinin adının dəyişdirilməsi bu mövqeyi göstərən bariz nümunədir."[23] Əlirza Nabdilin ikinci iddiası doğru deyildir, çünki addəyişmə əməliyyatının bəyan edildiyi aprelin 7'də Sovet Azərbaycanı hələ yaranmamışdı, o, aprelin 28'də elan edildi. Bununla belə, Xiyabaninin

"sosialist inqilabının güneyə doğru irəliləməsinə qarşı müdafiə mövqeyi tutması" haqqında Nabdilin tezisi tarixi faktlara uyğundur.

Xiyabani 1920'nin yayında Sovet ordusunun Gilana müdaxiləsini, eləcə də 7. Şirvan alayının Ərdəbili işğalını,Cəngəlilər hərəkatını diqqətlə izləmiş, Sovetlərin sözü ilə işi arasında böyük fərqin olduğunu görə bilmişdi. Gilan Sovet Respublikası qoşunları adı altında Sovet ordusunun Zəncana doğru irəliləyib, Xiyabani ilə iş birliyi təklifi edəndə o, bu təklifi geri çevirmiş, bu qoşunların Azərbaycanın içərisinə doğru irəliləməsinə qəti etirazını bildirmişdi. Bundan başqa Arazın güneyində yerləşmiş Abbasqulu Bəy Şadlinskinin atlı dəstələrinin, eləcə də Mustafa Kamal Paşanın yardım təklifini rədd etmiş,[24] "İranı İranlılar azad etməlidirlər" demişdir.[25] 7 avqust 1920 tarixində *Yuq Rossii* adlı qəzetin müxbirinə verdiyi masahibəsində o, Gilan hadisələrində xalq adından xalqa zülm edənlərin (bolşevik liderlərin) hərəkətlərini qətiyyətlə pisləmişdir. Xiyabani əgər əvvəllər, hətta üsyanın ilk aylarında Rusiyada gedən proseslərə rəğbətini bildirir, bolşeviklərlə iş birliyidən qaçmırdısa, Gilanda bolşeviklərin terror və talanlarından sonra bu müsahibəsində bolşevizmi "çarizmin o biri üzü" adlandırmışdır.

Mövzumuz üçün önəmli olan suallardan birisi də 1917-20'lərdə Demokrat Partiyasının Azərbaycanda mübarizə apardığı dövrdə, özəlliklə Təbriz üsyanı dövründə burada milli muxtariyyət uğrunda hərəkatın olub-olmaması məsələsidir. Bilindiyi üzrə, İran Demokrat Partiyası, eləcə də ADP'nin proqram sənədlərində İranın federallaşması zərurəti, Azərbaycana milli muxtariyyətin verilməsi tələbi qoyulmamışdır.[26] Ancaq ADP əməli fəaliyyətində, özəlliklə Təbrizdə hakimiyyətə nəzarət etdiyi beşaylıq dövrdə Azərbaycanın muxtariyyəti fikrini gerçəkləşdirdi. İlk növbədə Tehrandan göndərilmiş dövlət məmurları və hərbi qulluqçular işlərindən kənarlaşdırılaraq bu vəzifələrə ADP'nin tanınmış üzvləri təyin edildilər. Xiyabani dəfələrlə çıxışlarında "Bizə Tehrandan göndərilmiş vali lazım deyil" demiş, amma oradan təyin edilmiş valinin və vali müavininin fəaliyyət dairəsini mümkün qədər məhdudlaşdırmağa çalışmışdır. İranın hələ də qüvvədə olan anayasasına uyğun olaraq Azərbaycanda əyalət və vilayət əncümənlərinin yaradılması müraciətinə Tehrandan cavab almayan hərəkatın rəhbərliyi, anayasanı da aşaraq Xiyabaninin sədrliyi ilə 24 iyun 1920'də Milli hökumətin yarandığını elan etdi. Milli hökumət həmin gün vəliəhdin iqamətgahı olan Alaqapıya köçdü. (Səhəri gün Vüsuqüddövlə hökuməti istefa verdi).

Təbrizdə Milli hökumət dövründə Tehran mətbuatı Azərbaycandakı hərəkatı separatizm, İrandan ayrılmaq hərəkatı kimi qiymətləndirir, Xiyabani və başqa hərəkat başçıları haqqında iftiralar yayırdı. Halbuki ADP rəhbərliyi Azərbaycan muxtariyyətini İranın demokratikləşməsi üçün bir vasitə hesab edirdi. Başqa sözlə, İrana demokratiya, Azərbaycana muxtariyyət şüar kimi dilə gətirilməsə də, hərəkat başçıları bu xəttdən kənara çıxmadılar. Xiyabani deyirdi: "Təbriz İrana nicat verəcəkdir... Bu gün Təbrizdə hökumət demokratların əlindədir. Bu demokratik hökumət Təbrizdən başlayacaq və İranın ən ucqar şəhərlərinə də şamil olacaqdır. Biz yavaş-yavaş bu ali məqsədimizə çatacayıq. Bütün idarə və məqamlar bizim nəzarətimiz altında olacaq."[27] Xiyabaninin çıxış və məqalələrində istifadə edilən *vətən* anlayışı İranı, *millət, həmvətənlər* anlayışları isə bütün İran əhalisini ifadə edirdi. 1917. ildən sonrakı hərəkat dövründə, özəlliklə Təbrizdə hakimiyyətə malik olduğu zaman belə ADP rəhbərliyinin Türk kültürü ilə bağlı xüsusi fəaliyyətinin olmaması diqqətə dəyən faktdır. Kargüzarlıq işləri yenə də Farsca aparılır, ADP'nin qəzetləri Farsca çıxır,[28] "məmləkəti Azadistan"ın rəsmi sənədlərinin üstündə qədin İranın simvolu olan şir-xurşid nişanının şəkli çəkilir, İran pulu işlədilirdi və s. Əslində muxtariyyət sahəsindəki tələblərə nisbətən "ümummilli" maraq hesab edilən 1919. il müqaviləsinin və Britaniyanın mərkəzi hökumət üzərində ağalığının ləğvi, mərkəzi hakimiyyətin demokratikləşməsi tələblərinə daha artıq önəm verilirdi.

Şeyx Məhəmməd Xiyabani və Azərbaycan Demokrat Partiyası bəyan etdikləri təcəddüd siyasi fəlsəfəsinə uyğun olaraq İranın yeniləşdirilməsi, İran siyasi sisteminin

demokratikləşdirilməsi, İranın Britaniya imperiyasının protektoratına çevrilməməsi, doğma yurdu Azərbaycanın muxtar hüquqlara sahib olması istəkləri və bu istiqamətdə görülmüş fövqəladə önəmli işlər Tehran hökumətinin və İngilis diplomatik nümayəndəliyini qüvvələri birləşdirib, bu "qara yara"nı kəsməyə sövq etdi. Təbrizdəki demokratik hakimiyyətə qarşı lazımi hazırlıq işlərini tamamladıqdan sonra mərkəzi hökumət qüvvələri 11 sentyabr 1920 tarixində hücuma başladı və üç gün içində Təbrizdə Tehranın hakimiyyətini bərpa etdi. Şeyx Məhəmməd Xiyabani və onlarla hərəkat rəhbəri qətl edildi. Azərbaycandan sonra Gilan və Xorasandakı yerli demokratik hakimiyyətlər də basdırıldı. 1919. il müqaviləsinin ləğv edilməsinə baxmayaraq, İranın demokratikləşməsi, hətta federallaşması uğrunda yerlərdən başlanan hərəkat uğursuzluqla nəticələndi. Hakimiyyətin Tehranda mərkəzləşməsi üçün yol açılmış oldu.

*İrana demokratiya...*

İran rəsmi tarixçiliyi və Qərbdə bir sıra araşdırıcılar 21 Azər hərəkatına "*separatçı*" hərəkat kimi yanaşmışlar, başqa sözlə, bu hərəkatın məqsədinin İrandan ayrılmaq olduğunu iddia etmişlər. Stalin zamanında Sovet siyasəti də 21 Azər hərəkatına separatist mahiyyət verməyə çalışmışdır. Halbuki 1945-46. illərdə Güney Azərbaycandakı siyasi prosesdə qəbul edilmiş sənədlər də göstərir ki, hərəkatın başlıca məqsədi İranın ərazi bütövlüyü çərçivəsində Azərbaycana gerçək muxtariyyətin alınması olmuşdur. Milli Hökumətin tərkibində xarici işlər və müdafiə nazirliklərinin olmaması, İranın rəsmi valyutasından istifadə, İranın dövlət atributlarına hörmət və s. məhz məqsədin ayrılmaq deyil, ölkə daxilində muxtar idarəçiliyin yaradılması olduğunun göstəricisidir. Azərbaycan Xalq Konqresinin (20 noyabr 1945) qərarında yazılmışdı: "Azərbaycan xalqı özünün daxili işlərini idarə etmək və milli muxtariyyətini təmin etmək üçün əyalət əncüməni təşkilini bir qədər genişləndirib, ona Milli Məclis (MM) şəkli verir. İranın daxilində və İranın ərazi bütövlüyünə, istiqlaliyyətinə heç yolla xələl gətirmədən özünün Milli hökumətini vücuda gətirir."[29] 28 yanvar 1946 tarixində Azərbaycan Milli Hökumətinin BMT Baş Assambleyasına göndərdiyi müraciətdə son onillərdə Azərbaycana münasibətdə İran hökumətinin milli zülm siyasəti yeritdiyi izah edilir, bu hərəkatın Səttar Xan, Bağır Xan və Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi milli hərəkatların davamı olduğu bildirildi.[30] 13 iyun 1946 tarixində Təbriz nümayəndələri ilə Tehranın rəsmi şəxsləri arasında imzalanmış müqaviləyə görə, mövcud İran konstitusiyasına uyğun olaraq Azərbaycan Milli Məclisi Azərbaycan Əyalət Əncüməni, Azərbaycan Milli Hököməti isə Azərbaycan ostandarlığına çevrildi. Seyid Cəfər Pişəvəri Azərbaycan Demokrat Firqəsinin (ADF) yaranmasından az sonra çap etdirdiyi məqaləsində hərəkatın əsas məqsədi – İranın bütövlüyündə Azərbaycanın muxtariyyəti haqqında yazırdı: "Biz İranın istiqlalına əlağəmənd [bağlı] olduğumuz ilə bərabər Azərbaycan xalqının fərhəngi [mədəni] ixtiyaratı və öz müqəddəratını öz gücü ilə təmin etməsini arzu edirik."[31] Başqa bir məqaləsində ADF'in əsas sənədlərindən bəhs edərkən muxtariyyət məsələsinə aydınlıq gətirir: "Müraciətnaməmizdə olduğu kimi məramnaməmizin də əsasını məşrutə və qanuni-əsasinin ehyası [qorunması], Azərbaycan xalqının öz daxili işlərini idarə etməkdə muxtar olmasını təmin etmək üçün tezliklə əyalət və vilayət əncümənlərinin intixabı [seçilməsi] ilə bərabər ana dilimizdə yazıb-oxuyub dövlət idarələrindən istifadə etmək məsələsi təşkil edir."[32]

Hərəkatın liderləri 21 Azərin başqa bir məqsədinin isə Azərbaycandakı muxtariyyətin İranı demokratikləşdirməsi olduğunu dəfələrlə vurğulamışlar. Pişəvəri, məsələn, yazırdı: "Azərbaycan xalqı öz azadlığını almaqla bütün İran xalqlarını da əsarətdən xilas edəcəkdir... Biz Azərbaycan xalqının səadətini və İranın səfalət və fəlakətdən xilasını istəyirik...Əgər bizim məhəlli muxtariyyət şüarımız İranın hər bir əyalət və vilayətində əməli olursa milyonlar ilə şərafətli insanlar dövlətin poştibanı [müdafiəçisi] olmağa yol tapar, bu vasitə ilə qüdrətli bir hökumət

meydana çıxıb məmləkətin [İranın] dərdlərinə əlac etməyə müvəffəq olar. Həqiqi mərkəziyyət isə [İranda] bu vasitə ilə vücuda gəlməyə başlar.”[33] Hərəkat liderlərinin “Azərbaycana muxtariyyət, İrana demokratiya!” xətti onları himayə edən Sovetlər arasında anlaşmazlığın yaranmasına səbəb olurdu. Bir sıra qaynağın təsdiq etdiyi kimi, məhz bu anlaşmazlıq Mir Cəfər Pişəvərinin 1947’nin martında Sovet Azərbaycanında qətlinə səbəb olmuşdu.[34]

21 Azərin ikinci başlıca özəlliyi onun demokratik hərəkat olmasıdır. Azərbaycan Demokrat Firqəsinin rəhbərləri ölkənin demokratikləşməsində məzlum xalqlara muxtariyyətin verilməsini əsas vasitələrdən biri sayırdılar. Azərbaycan Milli Konqresi, Milli Məclis azad seçkilər nəticəsində formalaşmışdı. Bu seçkilərdə İran tarixində ilk dəfə olaraq qadınlar da iştirak etdilər. Bəzi müəlliflərin iddialarının əksinə, 21 Azəri kommunist hərəkat olaraq dəyərləndirmək doğru deyildir. Partiyanın sənədlərində xalq bir-birinə zidd siniflərə bölünmür, mülkiyyət hüququ tanınırdı. ADF’nin lideri hərəkat dövründə yazırdı: “Firqəmiz milli bir firqə olduğu üçün sinif və təbəqə nəzərdə tutmayıb, ümum camaatı öz bayrağı altına çağırır...Firqə siyasi və ictimai bir təşkilatdır və xalqı hidayət və təşkil edə bilər. Lakin ona hökumət edə bilməz. Xalqa hökumət edə bilən təşkilat əyalət əncüməni olacaqdır. Bu əncümən gərək demokratik üsul ilə ümumxalq tərəfindən seçilsin. Bütün dövlət idarələri və onların başında duranlar öz işlərində bu ali dövlət təşkilatına tabe olub, onun göstərişlərini icra etməyə məcburdurlar... Firqəmiz xalq firqəsi olub ümum millətə dayandığından xalqın fikrinə çox ciddi surətdə əhəmiyyət verməlidir. Bunu biz həmişə yadımızda saxlamalıyıq.”[35]

21 Azərin ən mühüm özəlliklərindən birisi də onun Güney Azərbaycan Türklərinin milli hərəkatının növbəti mərhələsi olmasıdır. Hərəkat liderləri bütün çıxış və yazılarında Məşrutə hərəkatı və 1920’dəki milli-demokratik hərəkatdan ilham aldıqlarını, həmin hərəkatların başçılarının (Səttar Xan, Bağır Xan, Xiyabani) onlar üçün örnək şəxslər olduğunu vurğulamışlar. Pişəvəri eyni zamanda göstərirdi ki, milli hərəkatın əvvəlki mərhələlərində buraxılmış səhvlər təkrar edilməyəcəkdir. Pişəvəri yazırdı: “Əgər Sərdari-milli Tehrana inanmasaydı, əgər Şeyx Məhəmməd Xiyabani xain, yalançı və min üzlü müşavirlərinin sözlərinə əhəmiyyət verməsəydi, əgər Lahutiyə xəyanət edən yalançı pəhlivanlar dara çəkilsəydi, indi nə tək Azərbaycan, bəlkə bütün İran dünyanın ən mütərəqqi, ən demokratik ölkələrindən biri olmuşdu. Bu səhvlər daima nəzərdə tutulub müzəbzəb [qətiyyətsiz] və mürəddəd [tərəddüd edən] adamların xainanə təlqinlərinə qulaq asmayıb öz gücümüzə bel bağlamalıyıq.”[36]

Milli-demokratik muxtariyyət prinsipi ilə yola çıxmış hərəkat liderləri *“İran milləti*” anlayışına, yəni birdilli (Farsdilli), birkültürlü (Fars kültürlü) hakim millət anlayışına da münasibət bildirmək zorunda idilər. Milli Konqresdə İran şahına, məclis sədrinə və baş nazirə ünvanlanmış məktubda qeyd edilirdi ki, *“Azərbaycan xalqı*” milliyyət, dil, adət-ənənə, özünəməxsus xüsusiyyətləri baxımından ayrıca millətdir, dünyanın hər bir həyata qabil milləti kimi *“Azərbaycan milləti”* də milli hökumət yaratmaq haqqına sahibdir, bu millət özü Azərbaycanı demokratik əsaslarla idarə etmək qabiliyyətinə malikdir.[37]Hərəkatın ilk dövründə qəbul edilmiş başqa rəsmi sənədlərdə, eləcə də hərəkat liderlərinin yazılarında “*Azərbaycan xalqı”, “Azərbaycan milləti”* anlayışı hakim olmuşdur. Bu anlayış Rza Şah zamanından qalma rəsmi *“İran milləti*” anlayışına zidd olmuş, sıx-sıx işlədilən “*İran milləti”* termini İranın bütün əhalisi, xalqı mənasını daşımışdır. İranın çoxmillətli quruluşa malik olması fikri daim qabardılmışdır.

Diqqətçəkən cəhətlərdən birisi də budur ki, bu zaman günlük danışıqda işlədilən *“Türk”, “Türk dili”* etnonimi və linqvoniminin yerinə, sənədlərdə və yazılarda bir qayda olaraq

“*Azərbaycan xalqı”, “Azərbaycan milləti”, “Azərbaycan dili*” terminləri işlədilir. Bu, Sovet Azərbaycanında yenicə qəbul edilmiş *“Azərbaycanlı*” konseptinin hərəkat liderləri tərəfindən Güney Azərbaycanda kopyalanması cəhdi idi. Milli tarix haqqında yazılar Sovet Azərbaycanında yenicə çapdan çıxmış *Azərbaycan Tarixi* kitabının[38] əsas tezislərini təkrarlamaqda idi. Bu, özəlliklə Firudin İbrahiminin əvvəl *Azərbaycan* qəzetində seriya məqalələr şəklində, daha sonra ayrıca əsər kimi çap edilmiş *Azərbaycanın Qədim Tarixindən* adlı kitabçasına[39] aid idi. Burada Azərbaycan Türklərinin tarixi Midiya dövləti ilə bağlanır və müasirləşdirilir. Müəllif, güman ki, Midiya dövləti tarixini qabartmaqla milli fikri Fars-Türk münasibətlərinin indisinə çəkməyi düşünmüş, Midiyanın acı taleyini yaşamamaq (Həxamənişlərin müstəmləkəsinə çevrilməmək) üçün oxucunu ayıq olmağa çağırmışdır. Rəsmi tarixçiliyin əksinə, müəllif hesab edir ki, Midiyanın Farsların tarixinə dəxli yoxdur, o indiki *“Azərbaycanlılar*”ın qurduğu dövlət olmuşdur.

21 Azər hərəkatı zamanı üstündə durulan ən önəmli məsələlərdən birinin milli dil olması təbii idi. Milli hərəkatların milli dil və kültür məsələlərinə birinci dərəcəli önəm verməsi ümumi haldır. Bu, Azərbaycanın milli qüvvələrinin özəlliklə həssas yanaşdığı mövzu idi. Çünki Rza Pəhləvi rejiminin Türklüyə münasibətdə uyğuladığı siyasətin ən həssas sahəsi məhz milli dil və milli kültür sahəsindəki yasaq idi. Milli Hökumət ilk başdan işlərini ana dilində qurdu, təhsil sistemini ana dilinə keçirdi, onlarla savadsızlığı ləğvetmə kursları işə başladı, onlarla yeni məktəb tikildi, Təbrizdə dövlət universiteti, dram teatrı və filarmoniya açıldı, şair və yazıçılar əncüməni, bəstəkar və memarlar cəmiyyəti quruldu, ana dilində dərslik və başqa kitablar çap edildi və s. Mir Cəfər Pişəvəri yazırdı: “Bizim dilimiz düşmənlərin iddialarına baxmayaraq çox geniş və qəni bir dildir. Onun kökü xalqımızın qanında və ürəyindədir. Biz onu ana südü ilə əmib vətənimizin ruhnəvaz havası ilə tənəffüs etmişik. Ona tohin [təhqir] edənlər, onu təhmili və məsnui [süni, qəlp] göstərmək istəyənlər bizim həqiqi düşmənlərimizdir... Biz Azərbaycanı hər cəhətdən özünün daxili işlərini idarəetməyə layiq bilirik. Xalqımızın danışdığı dil də Farsi deyildir. Ona görə çalışırıq, öz dilimiz ilə xalqımızı dünyanın mütəməddin [mədəni] xalqlarının məqamına yetirək.”[40] Azərbaycan nümayəndələri Tehranla danışıqlarda dil məsələsindən vaz keçməyəcəklərini bildirmiş, sonda müqavilənin əldə olunması xatirinə Azərbaycandakı orta və ali məktəblərdə tədrisin “Fars və Azərbaycan dillərində icra edilməsi” haqda bəndin artırılmasına razı olmuşlar. Eyni zamanda müqavilənin 5. maddəsinə edilən 3. əlavədə deyilirdi: “İran məşrutiyyətinə Azərbaycan xalqının etdiyi görkəmli xidmətlərindən, azadlıq və demokratiyanın bərqərar edilməsi yolunda Azərbaycan xalqının göstərdiyi fədakarlıqdan qədirdanlıq etmək məqsədi ilə dövlət Azərbaycandakı gömrük gəlirinin 5 faizinin Azərbaycan Universitetinin ehtiyaclarına sərf edilməsinə razılıq verir.”[41]

Azərbaycanda milli-demokratik hakimiyyət cəmi bir il sürdü. Tehran, 1946’nın payızına doğru toparlanaraq Azərbaycandakı bu hakimiyyətin üstünə getdi. Onun arxasında İranda Sovetlərin güclənməsindən narahat olan ABŞ və İngiltərə durdu, Azərbaycandakı hərəkatı ləğv etmək üçün Tehrana hərbi, maliyyə və diplomatik yardım verdi. Tehran uyğun şərtləri hazırladıqdan sonra 13 iyun tarixli razılaşmanı pozaraq silah gücü ilə Azərbaycandakı muxtar hakimiyyəti ləğv etmək qərarı verdi. Sovetlərin dəstəyindən məhrum olmuş, hətta onun təzyiqləri ilə üz-üzə qalmış Azərbaycan Milli Hökuməti lideri Pişəvərinin dili ilə az öncə *Öldü var, döndü yox* şüarını irəli sürmüş olsa da, faktik olaraq təslim oldu. Onminlərlə hərəkat üzvü Tehranın silahlandırdığı irticaçı dəstələr və İran ordusunun hissələri tərəfindən qətl edildi, ADF rəhbərliyi və fəalların xeyli hissəsi isə Sovet İttifaqına qaçdı. Azərbaycan (eləcə də Kürdüstan) muxtariyyəti

və İranın demokratikləşməsi şansının fəlakətli sonucu haqqında onlarla araşdırma var. Burada mövzumuz üçün önəmli olan bir neçə məqamı qeyd edək.

Birincisi, 21 Azər hərəkatı ilə Azərbaycan Türkü (ya Azərbaycan xalqı) formalaşmaqda olan millət əzmini ortaya qoydu. Yerli muxtar hakimiyyət orqanlarını yaratması və onun tədbirləri ilə bu etnos özünü idarə etməyə layiq və hazır olduğunu göstərdi.

İkincisi, 21 Azər hərəkatı İran Türklüyünün əvvəlki dövrlərdəki (Məşrutə, 1920. il) milli hərəkatlarının davamı oldu, amma milli məsələnin daha aydın qoyuluşu baxımından milli hərəkatın əvvəlki dövrlərini aşıb keçdi, milli hərəkatın zirvəsi oldu.

Üçüncüsü, 21 Azər hərəkatı təcrübəsi göstərdi ki, yerli muxtariyyətlərin uğuru ölkə miqyasında qeyri-Farsların milli hərəkatları, eləcə də İranın (ilk növbədə Tehrandakı mərkəzi hakimiyyətin) demokratikləşməsi ilə sıx bağlıdır. Hərəkat liderləri çıxışlarında və yazılarında bu zərurəti vurğulasalar da, bu sahədə müəyyən cəhdlər etsələr də (məsələn, Kürd muxtariyyəti ilə əlaqələrin yaranması) əməldə bu iki qüvvə arasında ittifaqın yaranmasına nail ola bilmədilər.

Dördüncüsü. 21 Azərin nailiyyətlərinin aradan getməsinin, Azərbaycan və Türk millətinin yenidən fəlakət yaşamasının birinci səbəbkarı İranda milli məsələnin həllini istəməyən, ölkənin demokratikləşməsindən hürkən İran irticası idisə, ikinci səbəbkar 21 Azər liderlərinin hərəkatı Sovet siyasətinə bağlamaları oldu. Sovet rəhbərliyinin İrandan neft imtiyazı almaq müqabilində Azərbaycan rəhbərliyini arxasız qoyması, hətta Tehranın Azərbaycana təcavüzünə müqavimət göstərməməsi üçün ona olan təzyiqlər sonralar "satqınlıq" olaraq dəyərləndiriləcəkdi.[42]

Beşincisi, 21 Azər hərəkatı İranda Azərbaycan/Türk məsələsini beynəlxalq siyasət platformuna çıxartdı. Yeni yaranmış Birləşmiş Millətlər Təşkilatının ilk müzakirə etdiyi və böyük güclərin maraqlarının toqquşduğu məsələ məhz Azərbaycan məsələsi oldu.

21 Azər hərəkatının İrandakı Türklüyün millətləşmə sürəcinə qoyduğu mənfi və müsbət təsir sonrakı onillərdə özünü göstərdi.

*Vilayəti-fəqih olmasın...*

İslam İnqilabı gedişində və ondan sonrakı illərdə Azərbaycandakı hərəkat, eləcə də ümumiyyətlə İrandakı Türklərin hərəkatı Fars olmayan başqa xalqların milli hərəkatlarından fərqli yolla getdi. İnqilabda fəal iştirak edən milyonlarla Türkü arxasınca apara biləcək vahid dini, ya dünyəvi mərkəz ortaya çıxmadı. Hətta yaranmaqda olan yeni rejimin rəhbərliyində təmsil olunmuş Türk din xadimləri belə vahid əsasda birləşə bilmədilər. Nəticədə bu dövrdə milli şüarlar qətiyyətlə və aydın şəkildə irəli sürülmədi, Türk milli hərəkatı aydın milli-siyasi proqram ortaya qoya bilmədi. Monarxiya rejiminin dağılmasının yaratdığı bu unikal şans da itirilmiş oldu. Bu şansın itirilməsinin əsas səbəbi olaraq Türk elitində mürəkkəb tərkibli, bəzən bir-birinə zidd olan kimliklərin varlığını vurğulamaq gərəkdir. Belə ki, Türk ruhanilərin əksəriyyətinin şüurunda İslamçılıq (daha doğrusu, Şiəçilik), İrançılıq ağır basmış, sol qüvvələr arasında isə İranlı kimliyi ilə yanaşı sinfi kimlik Türkçü və Azərbaycançı kimlikdən önəmli olmuşdur. Deyilənlər Türklüyün həmin dövrdə birləşdiyi əsas siyasi təşkilat olan Müsəlman Xalqın Cümhuriyyət Partiyasının fəaliyyətində özünü açıq göstərdi.

Müsəlman Xalqın Cümhuriyyət Partiyası (daha çox *Xəlqe-Müsəlman* kimi tanınırdı) inqilabın qələbəsindən iki həftə, Xomeyniçi qüvvələrin İslam Cümhuriyyəti Partiyasını qurmasından isə cəmi bir həftə sonra, 25 fevral 1979'da yarandı. *Xəlqe-Müsəlman* ümum-İran partiyası olub, ölkə səviyyəsində problemlərin həllini proqram məqsədi saymışdır. Martın 13'də elan edilmiş, preambula və 10 bənddən ibarət olan proqramında xüsusi sosial və milli-etnik tələblər olmamışdır. Farsca *Xəlqe-Müsəlman* qəzeti Tehranda çıxmışdır. Partiyanın mərkəzi də Tehranda idi. Yerli təşkilatların əksəriyyəti Türk bölgələrində yarandı. Əsas təşkilatlar Azərbaycan şəhərlərində, Tehranda və Qumda idi. Təşkilatlar fəaliyyətlərində xeyli dərəcədə müstəqil idilər. Adında *hizb* (partiya) sözü olmasına, özünü məhz *hizb* adlandırmasına baxmayaraq, əslində *Xəlqe-Müsəlman* siyasi hərəkat formasında təşkilat idi. Partiyanı maliyyə cəhətindən dəstəkləyən başlıca qüvvə Tehran və Təbrizin bazar əhli (*bazarilər*) idi.

*Xəlqe-Müsəlman*ın ideya-mənəvi rəhbəri Ayətüllahül-üzma Seyid Məhəmməd Kazım Şəriətmədari (1905-86) sayılırdı. Partiya üzvlərinin əksəriyyəti də İranın ən nüfuzlu bir neçə mərceyi-təğlidlərindən biri olan Şəriətmədarinin müğəllidləri (təqlidçiləri) idi. İranda bu müğəllidlərin, eyni zamanda partiya üzvlərinin sayı 2-3 milyon təxmin edilirdi. Onun oğlu Həsən, partiyanın rəhbərliyinə daxil idi, ancaq partiya rəhbərliyi Şəriətmədaridən birbaşa təlimat almırdı.

*Xəlqe-Müsəlman*, yarandığı gündən etibarən Ayətüllah Şəriətmədarinin İranın gələcəyi ilə bağlı fikirlərinin müdafiəçisinə çevrildi. Şəriətmədari, ölkənin gələcəyini konstitusiyalı monarxiyada görür, 1906-1907 anayasasına əməl olunması fikrini müdafiə edirdi. O eləcə də Ayətüllah Xomeyninin ali dini rəhbər (*vilayəte- fəqih*) doktrininin də əleyhinə idi. Şəriətmədariyə görə, bu doktrin əvvəlki Şah rejiminin başqa üzü idi, avtoritar rejim, ya diktatura üçün əsas yaradırdı, xalqın suverenliyi prinsipinə zidd idi. Az sonra o deyəcəkdi: "Belə görünür ki, biz bir monarxiyadan, başqasına doğru gedirik."[43] O həmçinin Şiə ənənəsinə əsaslanaraq iddia edirdi ki, ruhanilər birbaşa siyasətə qarışmamalı, dövlət idarəçiliyində, özəlliklə icraedici hakimiyyətdə iştirak etməməlidirlər. Ayətüllah Şəriətmədari üçün İranın bütövlüyü üstün dəyər idi. Bununla belə Pəhləvi hakimiyyətinin Fars olmayanların varlığını danıb, anlara münasibətdə ayrı-seçkilik siyasəti yürütməsinin fərqində idi. Ayətüllah dövlətin Fars olmayan xalqlar məsələsində siyasətinin dəyişməsi, onlara bəzi mədəni haqların verilməsi zərurətini irəli sürürdü. O, heç vaxt *muxtariyyət* termininini dilinə gətirməmişdir. Bunun səbəbi, görünür, onun hələ də *"21 Azər travması"*nı yaşaması ilə bağlı idi.

Ölkənin gələcəyi ilə bağlı köklü məsələlərdə fikir ayrılığının olması, eləcə də ən nüfuzlu din xadimlərindən biri olan Şəriətmədarini inqilabdan sonrakı proseslərdən kənarda saxlamaq cəhdi labüd olaraq bu iki şəxsi (Xomeyni və Şəriətmədarini) qarşı-qarşıya gətirəcəkdi. Bu toqquşma çox tez baş verdi.

Hələ fevral ayında Xomeyni müvəqqəti İslam hökuməti fikrinə müxalif olmağı dönüklük saydığını bildirəndə Şəriətmadari ona etiraz etdi. O bildirdi ki, sülhsevər tənqid, ya da müxalifətçilik əsla cəzalandırılmamalıdır.[44] Xomeyninin mart ayında Şəriətmədarini evində ziyarət etməsindən sonra da fikir ayrılıqları qalmaqda idi. Aprel ayında Ayətüllah Sadıq Xalxali Xəlqe-Müsəlman Partiyasının yaranmasını ruhaniyyətin birliyini pozan hadisə kimi dəyərləndirən bir məqalə ilə çıxış etdi.[45] Bu məqaləsində Xalxali, Ayətüllah Şəriətmədarini bölücülükdə ittiham etdi. Bu məqalə özəlliklə Azərbaycanda Şəriətmədari tərəfdarlarının qəzəbinə səbəb oldu. Yeni anayasanın hazırlanması və qəbulu məsələsində də Xomeyni ilə Şəriətmədari arasında fikir ayrılığı ortaya çıxdı. Xomeyni yeni anayasanın din adamlarından ibarət xüsusi qurumda (Məclise-

Xobreqan) hazırlanması və referendumda qəbulunu yeni rejimin sürətlə formalaşması üçün ən uyğun yol saydığı üçün,  avqust ayında bu quruma seçkilər təyin etdi. Şəriətmədari anayasa kimi mühüm bir sənədin xüsusi qurumda hazırlanmasının yanlış fikir olduğunu bildirib, onun birbaşa seçkilərlə toplanacaq qurucu (müəssislər) məclisin işi olduğunu bəyan etdi və tərəfdarlarını *Məclise- Xobreqana* seçkiləri boykot etməyə çağırdı. Ancaq *Xəlqe-Müsəlman*ın Azərbaycan təşkilatı seçkilərə qatılmağa qərar verib, namizədi Müqəddəm-Marağayinin *Məclise-Xobreqana* seçilməsinə nail oldu.[46]

İmam Xomeyni ilə Ayətüllah Şəriətmədarinin arası *Məclise-Xobreqanın* tələm-tələsik hazırladığı yeni anayasa layihəsinin dekabr ayının 2-3'ə təyin edilmiş referendum məsələsinə münasibətdə tamamilə açıldı. Bu arada Şəriətmədari  anayasa layihəsinin İslama ümumiyyətlə uyğun gəldiyini, onun təsdiq edilməsinin mümkünlüyünü bildirdi. Eyni zamanda o, layihədəki 56 (*Allah tərəfindən xalqa verilən haqlar*) və 110. (*Rəhbərin səlahiyyət və vəzifələri*) maddələrin bir-birinə zidd olduğunu və *Vilayəti-fəqih* (Rəhbər) anlayışının layihəyə daxil edilməsinin yolverilməz olduğunu bildirdi. Dövlət televiziyası Şəriətmədarinin rəyinin birinci (təqdir) hissəsini təkrar-təkrar verdi, ancaq ikinci hissədəki (tənqid) fikirləri gizlətdi. Bu, Şəriətmədari tərəfdarlarının qəzəbinə nədən oldu.

Dekabr ayının 5'də Xomeyni və Şəriətmədari tərəfdarları Qumda toqquşdular. Şəriətmədarinin mühafizəçilərindən biri bu toqquşmada həlak oldu. Bu hadisə Şəriətmədari tərəfdarlarını çilədən çıxartdı. Durumun dramatikliyinin fərqində olan Xomeyni, oğlu ilə birlikdə Şəriətmədarini evində ziyarət edib, ona başsağlığı verdi. İmam Xomeyninin bu hərəkəti görünməmiş hadisə idi. Ancaq bu, Azərbaycanı sakitləşdirə bilmədi. Şəriətmədarinin qəzəblənmiş tərəfdarları Təbrizdəki dövlət radio-televiziya mərkəzini, ostandarın iqamətgahını və başqa dövlət idarələrini tutdular. Təbrizdəki hərbi bazanın əsgər və zabitləri nümayişçilərə qoşuldular. Azərbaycanın bir neçə şəhərində də etiraz nümayişləri oldu.  Radio-televiziya mərkəzini ələ keçirmiş şəxslər *Müstəqil Azərbaycan İslam Cümhuriyyəti* adından danışmağa qədər irəli getdilər. Bu, artıq üsyan idi, növbəti dəfə Təbriz mərkəzi hökumətə qarşı üsyana qalxmışdı.

1979'un dekabrı – 1980'in yanvarındakı Təbriz üsyanının ayrıntılarına girmədən, mövzumuz üçün önəmli olan bir neçə məqama diqqət yetirək. Bu dövrdə hər iki tərəfdən onlarla ölən və yaralananın olmasına, qarşıduran tərəflərə on minlərlə insanın cəlb olunmasına, Təbrizdəki eyni dövlət idarəsinin bir neçə dəfə əldən-ələ keçməsinə, bir sözlə, Təbrizin və Azərbaycanın mərkəzə qarşı yetərincə kəskin mövqe tutmasına baxmayaraq, üsyan gedişində irəli sürülən tələblərin yetərsizliyi diqqəti çəkir. Belə ki, 13 dekabr'da Təbrizdə yarım milyonluq mitinqin ən "*radikal*" tələbi iki Azərbaycan ostanında idari və dini təyinatların Şəriətmədarinin təsdiqindən sonra mümkün olması tələbi idi. Münaqişələr sahəsində zəngin təcrübəsi olan Xomeyni, təbii, bu cür tələblərin yerinə yetirilməsinin mümkünlüyü haqqında vəd verməyi uyğun görmüş, hətta yeni anayasanın təshih edilməsi sahəsində Şəriətmədari ilə məsləhətləşəcəyini bildirmişdi. Özünə sadiq qüvvələrin toparlanması və qarşı tərəfdəki *Xəlqe-Müsəlman*ın rəhbərliyindən Hüccətül-İslam Xosrovşahi kimiləri öz tərəfinə çəkmək üçün vaxt qazanmış Xomeyni, addım-addım Şəriətmədarini dalana dirəyə bildi. Şəriətmədarinin davranışı da göstərdi ki, o "pis taktikdir" (Dilip Hiro).[47] Şəxsi nüfuzunun, eləcə də milli hərəkatın qüdrətinin zenitdə olduğu dövrdə belə Şəriətmədari, onu və bu hərəkatı artıq düşmən sayan tərəfə qarşı yumşaq davranış sərgilədi. Şəriətmədarinin başqa bir anlaşılmaz hərəkəti, daha doğrusu, hərəkətsizliyi üsyanın mərkəzinə (Təbrizə) getməməsi idi. Təbriz əhalisi yüzminlərin iştirak etdiyi mitinq və yürüşlərdə *Can sənə*

*qurban Şəriətmədar, Qum sənə zindandı, Şəriətmədar!* nidaları ilə onu doğma Təbrizə çağırırdı. Şəriətmədari və *Xəlqe-Müsəlman* rəhbərliyinin başqa bir yanlışlığı isə Fars olmayanların milli hərəkatları ilə Türk milli hərəkatı arasında əməkdaşlıq məsələsinə yetərincə önəm verməməsi oldu. Təbriz üsyanı vaxtı Kürd hərəkatının lideri Şeyx İzzəddin Hüseyni Təbrizə təbriklə yanaşı silahlı dəstələr göndərmiş, amma Şəriətmədari buna gərəkən qarşılıq verməmişdi. Bu dəfə də Azərbaycan özünün milli məsələlərində deyil, daha çox ümum-İran problemi - *Vilayəti-fəqih*in səlahiyyətləri (110. maddə) – üstündə israr etdi. Ümimiyyətlə, Şəriətmədarinin milli məsələnin qoyuluşunda, eləcə də milli hərəkatın gedişində qətiyyətsiz mövqe tutması, bizim fikrimizcə, onun İranlı və Müsəlman kimliyinə ifrat bağlılığı ilə izah edilə bilər.[48] "*İranın dağılacaği*" qorxusu onu Kürd hərəkatı ilə sıx birliyin yaranmasından uzaq saxladı. Bu psixoloji durumun yaranmasına, görünür, Sovet İttifaqının 1979'un dekabrında Əfqanıstana girməsi faktı və növbəti hədəfin İran olması haqqında şayiələrin süni şəkildə körüklənməsi da təsirsiz qalmadı. Tehran mətbuatı davamlı olaraq Təbrizdəki üsyanın xaricilərin işi olması haqqında ictimai psixoz yaratmaqda idi.[49]

Ayətüllah Şəriətmədarinin qətiyyətsizliyindən və ardıcıl olmamasından, eləcə də Türk milli hərəkatının aydın strateji və taktik xəttinin olmamasından istifadə edən İmam Xomeyni, Təbrizdəki üsyanı yatırda bildi. Az sonra rəqibi Şəriətmədarini siyasət meydanından vurub çıxartdı, hətta onun ayətüllah rütbəsini də ləğv etdirərək, ömrünün sonunadək (1986) onu ev dustağı etdirdi. 1979'un dekabrında *İslam anayasası* referendumda təsdiq olunandan sonra, yeni ilin yanvarında prezident seçkiləri keçirildi, mart-mayda parlament seçildi, avqust-sentyabrda yeni, daimi hökumət işə başladı. 1980'in sentyabrında başlamış İran-İraq savaşı İranda "*milli birliyin*" yeni amilinə, xalqın inqilabi həyəcanını tükədən elementə çevrildi. Həmin 1980. il İran tarixində yeni, teokratik rejimin formalaşması ili oldu.

Taleyini Türklərin tanınmış dini liderinə (Ayətüllah Şəriətmədariyə) bağladığı, siyasi proseslərin hazırlıqsız yaxaladığı milli hərəkat, bu mərhələdə də uğur qazana bilmədi. İnqilabın yaratdığı ümidlər suya düşdü. Türklük siyasətən məğlub oldu. İnqilabın qələbəsindən artıq bir il sonra Türkdilli mətbuatda yeni rejimin milli məsələdə əski rejimdən yalnız əmmaməsi ilə fərqləndiyi haqqında fikirlər yer almağa başladı.

*Sonuc*

Yüz ildən artıq keçmişi olan İranda Azərbaycan/Türk hərəkatının[50] qısa təhlili bir sıra önəmli xüsusu ortaya qoymağa imkan verir. Birinci xüsus milli hərəkatın gənəlliklə "İran mərkəzli" olmasıdır. İranın problemlərini çözmək üçün Azərbaycanın və Türklüyün canını fəda etməsidir; Sonunu düşünmədən çürümüş Qacar hakimiyyətini devirməsi üçün Təbrizin bir il ac qalmasıdır; Britaniya ilə müqavilənin ləğvi üçün sonuncu Qacar hökmdarı Sultan Əhməd Şahın taxt-tacdan əl çəkməsini belə gözünə almasıdır; Vilayəti-fəqih institutunun ləğvini milli maraqların üstündə tutmasıdır; Hərəkatın İran üçün siyasi cəhətdən fədakarlıq edib, milli maraq baxımından qəflət etməsidir. Bu ölkədə siyasi partiyaların sıravi üzvlərinin xeyli hissəsinin Türklərdən ibarət olması bir faktdır. İranda Türk millətinin varlığını belə inkar edən ümum-İran "hizbləri və ittihadiyələrində bizlərin ə'za, onların rüasa kisilmələri" (Təbrizli Əli) olması duşündürücüdür. Bu fədakarlığın qarşılığında İran/Fars fikir sistemində milli hərəkatın separatist hərəkat kimi alqılanıb, boykot edilməsi də bir başqa gerçəklikdir.

Son illərdə başqa bir ifratın şahidiyik. *Azərbaycan İran deyil!* deyib içində yer aldığı ölkədəki siyasi cərəyan və hərəkatlardan özünü tamamilə təcrid etmək istəkləri özünü göstərir.

Halbuki milli hədəfə çatmaq üçün ölkə miqyaslı demokratik, sekulyarist, qadın, qeyri-Farsların milli hərəkatları ilə işbirliyinin olması gərəkliyi olmazsa-olmazlardandır.

21 Azər hərəkatı və Milli Hökumət zamanı bu qopuqluğu aradan qaldırmaq cəhdi edildi. Demokratik dəyərləri ölkə miqyasına yaymaqla yanaşı, ilk dəfə milli dil, milli mədəniyyət məsələsi ortaya atıldı. Amma hərəkatın taleyini Sovet diktatoru Stalinin iradəsinə bağlamaq yanlışlığını yaşadıq. Bu yanlış da uzun onillər milli hərəkatın irəliləməsinə mane oldu, hərəkatın çağdaş mərhələsi üçün model olmaqdan çıxdı.

Tariximizdən alacağımız ibrət dərslərindən biri də bir əsr öncəki Azərbaycan və Türklüklə indikini eyniləşdirməkdir. Məşrutə dönəmindəki iqtisadi, siyasi, demoqrafik gücümüzlə indikini eyniləşdirmək cəhdi ortadadır. Halbuki mənfisi - müsbətilə müqayisəyəgəlməyəcək qədər fərqli durumdayıq.

Milli hərəkatın taktik gedişlərinin dəqiqləşməməsinin səbəbi, milli ideologiya sahəsindəki yarım qalmış durum sayıla bilər. *Biz kimik, haradan gəlib, haraya gedirik* kimi həssas sualların cavabında paylaşılan ortaq təsəvvürlərin olmaması ciddi problemdir. İranda Azərbaycan/Türk hərəkatının qəhrəmanlıqlarla dolu, fəqət faciələrlə nəticələnmiş tarixindən gərəkən ibrət dərslərinin alınması onun (hərəkatın) uğurlu gələcəyi üçün vacib şərtdir. Dərsalma isə obyektiv analizlər sayəsində əldə edilir.

---

[1]*Məctueyi qəvanin və mouzeye və mosəvvəbate advare əvvəl və dovvome qanun qozariye məclese şouraye melli,* Tehran, 1318 [1939], s. 64-84.

[2]"İctimaiyyun-amiyyun" partiyasının mərkəzi Qafqazda idi və gerçək rəhbəri Nəriman Nərimanov sayılırdı. Ş. Ə.Tağıyeva, Nəriman Nərimanovun 1905-1911-ci illər İran inqilabı ilə əlaqədar fəaliyyəti haqqında, *Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası,* 1973, N 3, s. 39-41.

[3]Bu partiyanın proqram sənədləri haqqında baxın: *Новая история Ирана. Хрестоматия,* Ответ. редакторы М.С.Иванов, В.Н.Зайцев, Москва: Наука, 1988, с.250-264.

[4]Yenə orada, s. 264-265.

[5]Hoseyn Ommid, *Tarixe fərhənge Azərbaycan,* Təbriz, 1332, s.49.

[6]Məsələn, baxın:Pərvanə Məmmədli, *Cənubi Azərbaycan mətbuat tarixi*, Bakı: Elm, 2009, s. 33-62. Urmuda nəşr edilmiş *Fəryad* qəzetinin 5 may 1907 tarixli sayında "Xitabə. Türk cavanlarına" başlıqlı yazıda Güneydəki gəncləri birliyə çağırması və Quzeydəki/Qafqazdakı gənclərdən ibrət almağa dəvət etməsi istisna sayıla biləcək hal sayılmalıdır. *Ruznameye Fəryad,* tədvin Cəmal Ayrumlu, Urmiyye: 1394, s. 60-61; Н.К.Белова,К вопросу о так называемой социал-демократической партии Ирана, *Вопросы истории и литературы стран зарубежнего Востока,* Москва, 1960, с. 122.

[7]*Şəbüstərli Mirzə Əli Möcüzün əsərləri*, toplayan Məhəmməd Tağı Zehtabi, Birinici cild, Şəbüstər: [...],1389, s. 9 (Zehtabinin qeydi).

[8]Əhməd Ağaoğlu, *İran və inqilabı,* Bakı: CBZ, 2009, s.116.

[9]Əhməd Kəsrəvi, *Tarixe Məşruteye İran,*II cild, Tehran: Əmir Kəbir, 1978, s. 48.

[10]Yenə orada, s.50-51.

[11]*Məctueyi qəvanin və mouzeye və mosəvvəbate advare əvvəl və dovvome qanun qozariye məclese şouraye melli,* s.3.

[12]*Новая история Ирана. Хрестоматия,* Москва: Наука, 1988, s. 215.

[13]*Məctueyi qəvanin və mouzeye və mosəvvəbate advare əvvəl və dovvome qanun qozariye məclese şouraye melli,*s. 34, 64

[14]Yenə orada, s. 36, 41.

[15]Mehmed Emin Resulzade, *İran Türkleri,* İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1993, s. 30.

[16]Təbrizli Əli, *Ədəbiyyat və milliyyət,* Tehran: Atropat: [1978], s. 54.

[17]Touraj Atabaki, *Azerbaijan. Ethnicity and Autonomy in Twentieth-Century Iran*, s. 63.
[18]Nəsib Nəsibli, *Azərbaycan Demokratik Respublikasının xarici siyasəti*, Bakı: Qanun, 2011, s. 214.
[19]Yenə orada, s. 215.
[20]Əli Azəri, *Qiyame Şeyx Məhəmməd Xiyabani dər Təbriz,* Tehran, 1349, s. 367.
[21]Yenə orada, s. 343.
[22]Çox sonralar 21 Azər hərəkatının liderlərindən biri Salamulla Cavid yazacaqdı: "Şeyx Məhəmməd Xiyabani qiyamı nəticəsində yaranan Azadistan da tənqid olunurdu ki, niyə Azərbaycana Azadistan dedilər? Halbuki mərhum Xiyabani bu hökumətin adının Şimali Azərbaycan hökumətinin adı ilə oxşar olmasını istəmirdi." *Varlıq*, xordad 1358, N 2, s. 56.
[23]Əlireza Nabdel, *Azərbaycan və Məsələyi Melli*, Tehran: İldırım, 1357, s. 11.
[24]Baxın: Nasrollah Saifpour Fatemi, *Diplomatic History of Persia. 1917-1923. Anglo-Russian Power Politics in Iran*, New York, 1952, 1952, p. 245, 249; Şövkət Tağıyeva, Nəsib Nəsibzadə, 1918-1920-ci illərdə Azərbaycan-İran münasibətləri və Azadistan məsələsi, *Azərbaycan Demokratik Respublikası,* Bakı, 1992, s. 72.
[25]*Şərhe hal və eğdemate Şeyx Məhəmməd Xiyabani,* Berlin: İranşəhr, 1304, s.57.
[26] Baxın: Nəsib Nəsibli, *Azərbaycan Tarixi: Millət, Dövlət, Siyasət*, Bakı: Qanun, 2022, s. 474-475.
[27]Əli Azəri, *Qiyame Şeyx Məhəmməd Xiyabani dər Təbriz,*s. 538.
[28]Xiyabani Türkcə nitq söyləyir, amma bu nitqlərin mətni *Təcəddüd* qəzetində Farsca yayınlanırdı.
[29]Şövkət Tağıyeva, Əkrəm Rəhimli (Bije), Səməd Bayramzadə, *Güney Azərbaycan. Məlumat kitabı,* Bakı: Orxan, 2000, s. 219.
[30]Yenə orada, s. 236.
[31]*Azərbaycan* (Təbriz), 5 sentyabr 1945; Mir Cəfər Pişəvəri, *Seçilmiş əsərləri,* Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1984, s. 274-275.
[32]*Azərbaycan* (Təbriz), 25 sentyabr 1945. Mir Cəfər Pişəvəri, *Seçilmiş əsərləri*, s. 297.
[33] Mir Cəfər Pişəvəri, *Seçilmiş əsərləri*, s.276, 298, 321.
[34] Toplantıların birində Mir Cəfər Bağırovun 21 Azər hərəkatının məğlub olmasının əsas səbəbinin və ADF-in əsas səhvlərindən birinin Sovet Azərbaycanı ilə kifayət qədər sıx əlaqənin qurulmaması, "ona söykənməməsi" fikri qarşısında Pişəvəri deyibmiş: "Yoldaş Bağırovun fikrinin əksinə olaraq mən bu əqidədəyəm ki, bizim ən böyük səhvimiz və hərəkatımızın məğlubiyyət səbəbi ondadır ki, lazım olan səviyyədə İran Azərbaycanı ilə İran arasındakı sarsılmaz vəhdətə və Azərbaycanın İrandan ayrılmazlığına söykənmədik." Şövkət Tağıyeva, Əkrəm Rəhimli (Bije), Səməd Bayramzadə, *Güney Azərbaycan, s.267.*
[35]Mir Cəfər Pişəvəri, *Seçilmiş əsərləri*, s.275, 281, 297.
[36]*Azərbaycan* (Təbriz), 12 sentyabr 1945.
[37]Yenə orada, 23 noyabr 1945.
[38]*Azərbaycan tarixi. Qısa oçerk. Qədim zamanlardan XX əsrə qədər,* Bakı, 1943.
[39] Firudin İbrahimi, *Azərbaycanın qədim tarixindən,* Təbriz, 1946.
[40]Mir Cəfər Pişəvəri, *Seçilmiş əsərləri*, s. 277-278, 329.
[41] Müqavilənin tam mətni üçün baxın: Əkrəm Rəhimli (Bije), *Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946),* s. 180-183.
[42] Baxın: Salamulla Cavid, *O günün həsrəti ilə. Xatirələr*, Bakı: Yurd, 2003, s. 75-86.
[43] Dilip Hiro, *İran Under the Ayatollahs,* London and New York: Routledge and kegan Paul, 1985, p. 139.
[44] *İran Times,* 9 February 1979. Alıntı: Dilip Hiro, *İran Under the Ayatollahs,*s. 118.
[45] *Ettelaat*, 2 ordibeheşt 1358 (22 aprel 1979)
[46]Yetmiş neçə nəfərlik bu məclisdə hakim İslam Cümhuriyyəti Partiyasının üzvü olmayan bir neçə nümayəndədən biri olan Müqəddəm-Marağeyi İranın gələcək parlamentinin faktik olaraq iki qatdan ibarət olması təklifini irəli sürdü. Onun fikrincə, üst qatın – Məclise-Əyalatın (Əyalətlər Məclisi) varlığı hakimiyyətin mərkəzi hökumətin əlində cəmləşməsinə mane ola bilərdi. Brenda Shaffer, *Borders and Brethren. İran and the Challenge of Azerbaijani İdentity,* p.91.
[47] Dilip Hiro, *İran Under the Ayatollahs,* p.141.
[48]Fransız qəzetçiləri ilə söhbətində Ayətüllah Şəriətmədari onların muxtariyyət haqqında sualına cavab olaraq demişdir: "Bizin əqidəmizə görə, indiki vaxtda İran və onun ərazi bütövlüyü məsələsi muxtariyyət məsələsindən daha mühümdür... İranlı olmaq icab edir ki, bu mətləblər indi qaldırılmasın. Qoyun məmləkətdə sakitlik və dinclik yaransın." (*Ayəndeqan,* 31 may 1979).
[49] Amerikalı araşdırmaçı S. Enders Wimbush Təbrizdəki üsyanı xaricilərin təhrik etməsi fikrini tənqid edərək, məsələn, göstərirdi ki, Sovetlərin Güney Azərbaycandakı milli hərəkatdan uzaq durmasının birinci səbəbi bu hərəkatın Sovet Azərbaycanına keçə bilməsi təhlükəsi idi. S. Enders Wimbush, *Iran's Ethnic Factions Threaten to Split the State,* California, Santa Monica: The Rand Corporation, 1980, s.4.
[50] Güney Azərbaycan sərhədləri daxilindəki hərəkatı *İranda Azərbaycan hərəkatı;* ölkədəki bütün Türkləri qapsayan hərəkatı isə *İranda Türk hərəkatı* adlandırmağı uyğun görürük. Fərqli özəlliklərin olmasına baxmayaraq, bu iki hissə bir-birinə ayrılmaz tellərlə bağlıdır.